**Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi**

**Məhkəmə Ekspertizası Mərkəzi**

## Məhkəmə Ekspertizası Mərkəzinə
**qulluğa qəbul olunmaq üçün müsabiqədə
iştirak edən namizədin**

# YADDAŞ KİTABÇASI

# Hörmətli namizəd!

Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi qulluğa qəbulla bağlı müsabiqədə iştirak edən şəxslərə uğurlar arzulayır.

Məqsədimiz Sizə biliklərinizi nümayiş etdirmək üçün lazımi əlverişli şərait yaratmaqdan, müsabiqədə şəffaflığı, aşkarlığı və obyektivliyi təmin etməkdən ibarətdir.

Siz müsabiqədə uğur qazanmaq üçün yüksək bilik nümayiş etdirməklə yanaşı, yaddaş kitabçasında göstərilənləri mütləq bilməli və müsabiqənin keçirilmə qaydalarına əməl etməlisiniz.

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**
**Məhkəmə Ekspertizası Mərkəzi**

# Namizədin mütləq bilməli olduğu məsələlər

## 1. Namizədin müsabiqəqabağı vəzifələri

*1.1. Siz müsabiqənin başlanmasına azı 1 saat qalmış Məhkəmə Ekspertizası Mərkəzinin inzibati binasının qarşısına gəlməli (ünvan: Bakı şəhəri, Xəqani küçəsi, 24), özünüzlə mütləq şəxsiyyətinizi təsdiq edən sənədin əslini (şəxsiyyət vəsiqəsi, müvəqqəti şəxsiyyət vəsiqəsi və ya ümumvətəndaş pasportu) gətirməlisiniz.*

**Diqqət!**

Göstərilən sənədlərdən hər hansı biri olmadıqda və ya sənəd etibarsız olduqda namizəd imtahana buraxılmır.

## 2. Müsahibə

2.1. Namizədlərin Məhkəmə Ekspertizası Mərkəzində işləmək üçün zəruri keyfiyyətlərə malik olmasını müəyyən etmək məqsədi ilə müsahibə keçirilir.

2.2. Müsahibə hər bir namizədlə fərdi qaydada, aşkarlıq şəraitində keçirilir və 30 dəqiqəyədək aparılır. Müsahibə zamanı hər namizədə 5 sual verilir və həmin suallar müvafiq elm sahələrinə aid olur, habelə namizədin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi dünyagörüşünü və bilik səviyyəsini müəyyənləşdirməyə xidmət edir.

2.3. Müsahibənin keçirildiyi yer və vaxt barədə namizədlərə Müsabiqə Komissiyası tərəfindən əvvəlcədən məlumat verilir.

## 3. Namizədə qadağandır:

3.1.1. Müsahibə keçirilən auditoriyaya mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, elektron məlumat daşıyıcısı, kalkulyator, konspekt və ədəbiyyat, məlumat və qeydiyyat kitabçası, çanta, portfel və digər yardımçı vəsaitlər gətirmək və onlardan istifadə etmək;

3.1.2. Yandırıcı, partlayıcı, kəsici, deşici və digər növ əşyalarla Mərkəzin binasına girmək, özü ilə siqaret gətirmək;

3.1.3. Hər hansı bir səbəbdən müsahibə keçirilən auditoriyanı tərk edib yenidən geri qayıtmaq;

3.1.4. Nizam-intizamı pozmaq.

**Diqqət!**

Belə hallar aşkar olunarsa, namizəd müsabiqədən kənarlaşdırılır və onun müsabiqə nəticələri ləğv edilir.

3.2. Məhkəmə Ekspertizası Mərkəzinə qulluğa qəbul olunmaq üçün namizədlərlə müsahibənin keçirilməsi qaydalarının və bu "Yaddaş kitabçası"nın şərtlərinə dair hər hansı bir pozuntuya və saxtakarlığa yol verməsinə görə (saxta sənədlər təqdim etmə, müsabiqəyə öz yerinə başqasını göndərmə və s. hərəkətlər) namizədin müsabiqə nəticələrinin ləğv olunması və onun haqqında müvafiq tədbirlər görülməsi nəzərdə tutulmuşdur.

3.3. Əgər Siz müsabiqə zamanı qaydaların pozulması halları ilə rastlaşsanız, mütləq Komissiyaya müraciət edin.

**Sizə müvəffəqiyyətlər arzulayırıq!**

**Azərbaycan Respublikasının**
**Ədliyyə Nazirliyi**
**Məhkəmə Ekspertizası Mərkəzi**

# Hörmətli namizəd!

Məhkəmə Ekspertizası Mərkəzinə qulluğa qəbulla bağlı keçiriləcək müsabiqədə müvəffəqiyyət qazanmaq üçün Siz Azərbaycan Respublikasının Konstitusiyası, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında", "Məhkəmə ekspertizası fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "Korrupsiyaya qarşı mübarizə haqqında", "Vətəndaşların müraciətləri haqqında" Qanunları, Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzi haqqında Əsasnamə, "Ədliyyə orqanlarının inkişafı haqqında" Azərbaycan Respublikası Prezidentinin 17.08.2006-cı il tarixli Fərmanı, "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi Qaydaları", "Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə qulluğa qəbul olunmaq üçün namizədlərlə müsahibənin keçirilməsi Qaydaları" barədə ətraflı məlumatlara malik olmalısınız.

Bundan başqa müsahibəyə hazırlaşarkən malik olduğunuz ali təhsil ixtisası üzrə tədris zamanı istifadə edilən aşağıdakı normativ hüquqi aktlar, dərslik və digər elmi metodik vəsaitlər üzrə zəruri biliklərə yiyələnmək tövsiyə olunur.

## İNŞAAT MÜHƏNDİSLİYİ İXTİSASI ÜZRƏ:


1. Hüseyn Artıkoğlu, Xalid Məhəmmədoğlu. Dəmir-beton elementlərin hesablanması (texniki ali məktəb tələbələri üçün dərs vəsaiti). Bakı, 2005, “Nurlar”.
2. X.Q.Seyfullayev, G.X.Cəbrayılova. Nazik divarlı dəmir-beton fəza konstruksiyaları. "Elm", Bakı, 2009.
3. X.Q.Seyfullayev. Mühəndis dəmir-beton konstruksiyaları. "Elm", Bakı, 2010.
4. Ə.M.Bələgözov. Monolit və yığma-monolit dəmir-betondan bina və qurğuların tikintisinin texnologiyası. 2011.
5. M.Ə.Hacıyev. Bina və qurğuların dayanıqlılığı. Mühazirələr toplusu. Bakı, 2014.
6. M.Ə.Hacıyev. Qapalı konturlu statik həll olunan sistemlərdə epürlərin qurulmasına dair metodik göstərişlər (texniki ali məktəb tələbələri üçün metodik vəsait). Bakı, 2012, “Tİ-MEDİA”.
7. M.Ə.Hacıyev, F.Q.Həsənov. İnşaat konstruksiyaları mexanikasının praktik kursu (dərs vəsaiti). Bakı, 2012, “Tİ-MEDİA”.
8. M.Ə.Hacıyev, A.M.Nəcəfov. Kompleks dəyişənli funksiyalar nəzəriyyəsinin əsasları. Praktik kurs. Bakı, 2012, “Tİ-MEDİA”.
9. M.A.Гаджиев, B.M.Драаз. Балки и рамы на упругом основании. Bakı, 2012, “Tİ-MEDİA”.
10. M.A.Гаджиев. Расчет армированных элементов строительных конструкций с применением реальных нелинейных диаграмм кратковременного и длительного деформирования материалов. Баку, 1996, “Элм”.
11. X.Q.Seyfullayev. Nazikdivarlı dəmir-beton fəza

konstruksiyaları (texniki ali məktəb tələbələr üçün dərslik). Bakı, 2010, “Tİ-MEDİA”.
12. X.Q.Seyfullayev. Mühəndis dəmir-beton konstruksiyaları (texniki ali məktəb tələbələr üçün dərslik). Bakı, 2010, “Tİ-MEDİA”.
13. N.H.Ağayev, L.M.Zeynalov. Metal konstruksiyaları (texniki ali məktəb tələbələri üçün dərslik). Bakı, 2008, “Tİ-MEDİA”.
14. B.S.Sərdarov, T.A.Haqverdiyeva, Y.X.Xəlilov. “Divar, bəzək və izolyasiya materiallarının texnologiyası”, dərslik, Bakı, 2007.
15. B.S.Sərdarov, S.İ.Abbasova, A.A.Quvalov, R.A.Qurbanova. “Keramika materiallarının texnologiyası”. Dərs vəsaiti, Bakı, 2007.
16. B.S.Sərdarov, T.A.Haqverdiyeva. “Beton doldurucularının texnologiyası”. Dərslik, Bakı, 2008.
17. R.S.Mahmudov. Suqəbuledici qurğular, 2008.
18. R.S.Mahmudov. Su kəməri şəbəkələri, 2006.
19. H.S.Məmmədov. Şəhər infrastrukturunda alternativ enerji mənbələri. Bakı, 2010.
20. M.Ə.Hacıyev. İnşaat mexanikasından hesablama-qrafik işlərin nümunələri (texniki ali məktəb tələbələri üçün dərs vəsaiti). Bakı, 2012, “Tİ-MEDİA”.
21. F.M.Hüseynov, M.N.Mikayılova, R.R.Ağazadə. Şəhərsalma nəzəriyyəsi. Bakı, 2008.
22. N.H.Nağıyev. Azərbaycan Respublikasında müasir şəhərsalma. Bakı, 2011.
23. N.Ə.Əliyev, E.F.Hüseynov, N.O.Yusufova, Z.A.Şıxlinskaya, Y.S.Kərimli. Bina və qurğuların tipologiyası, Bakı.2014.
24. N.C.Abdullayeva. Azərbaycanın mühəndis

qurğularının memarlığı. Bakı, 2009.
25. Z.G.Məmmədova. Bərpanın elmi-nəzəri əsasları. Bakı, 2007.
26. V.H.Muradov. Mülki binaların memarlıq konstruksiyaları. Bakı, 2007.

## KİMYA İXTİSASI ÜZRƏ:

1. H.Ə.Hüseynova, T.M.İlyaslı. “Qeyri-üzvi kimya” praktikumu (Dərslik) “Ləman nəşriyyatı poligrafiya” 2023, 335 s.
2. T.M.İlyaslı “Ümumi və Qeyri-üzvi kimya” (Dərslik) Bakı, 2020, 598 s.
3. Babanlı M.B., Ilyaslı T.M., Sadıqov F.M., Yusibov Y.Ə. “Fiziki-kimyəvi analizin əsasları” (Dərslik) 2015, 248 s.
4. Sadıqov F.M., Əliyev O.Ə., İlyaslı T.M., Məmmədova S.H., Cəfərova Y.K. “Yarımkeçiricilər Kimyası” (Dərslik) “Əfqan poliqrot” MMC mətbəəsi, 2016, 450 s.
5. T.M.İlyaslı, Əliyev O.Ə. Qeyri-üzvi kimya (Elementlər kimyası) (Dərs vəsaiti) “Ləman nəşriyyatı poligrafiya” 2011, 166 s.
6. T.M.İlyaslı, J.M.Seyfullayeva. “Qeyri üzvi biokimya” (Dərslik) Bakı, BDU-nun nəşriyyatı, 2008, 288 s.
7. H.H.Asadov, U.A.Hasanova Nanoquruluşlar Biologiya və Kimyada. Dərs vəsaiti. 2018, 320 p.

8. З.А.Мамедова., А.Н. Гулиев «Химия органических красителей», Dərs vəsaiti. Bakı 2016, 224 s.
9. A.M.Məhərrəmov, İ.Ə.Əliyev. «Heterotsiklik birləşmələr kimyası», “Bakı Universiteti” nəşriyyatı, Dərslik. 2016, 504 s.
10. F.Ş.Kərimli, E.S.Məmmədov, E.İ.Əhmədov, Kimyəvi kinetika və kataliz, 2024
11. S.E.Məmmədov, T.O.Qəhrəmanov, S.E.Mirzəliyeva, N.T.Şəmilov. Kolloid kimyadan praktikum. Dərs vəsaiti, Bakı, 2019
12. Y.İ.Cəfərov, E.İ.Əhmədov. Fiziki Kimya. Dərs vəsaiti, Baki, 2019
13. Г.З.Гасанзаде,В.Л.Багиев, Дж.И.Мирзаи. Практикум по физической химии. Dərs vəsaiti. Bakı, 2013
14. N.T.Şəmilov, S.E.Mirzəliyeva, G.X.Vəliyeva. Tətbiqi elektrokimyadan praktikum. Dərs vəsaiti, Bakı, 2012
15. Cəfərov Y.İ. Fiziki və kolloid kimya. Ali məktəblər üçün dərs vəsaiti. Bakı, 2011
16. N.T.Şəmilov, F.Ş.Kərimli, F.E.Hüseynov. Qaz xromatoqrafiyası. Dərs vəsaiti. Uniprint, Bakı 2010
17. E.İ.Əhmədov. Kolloid kimya. Dərs vəsaiti. Bakı, 2007
18. E.İ.Əhmədov, N.A.Rzayeva. Kimyəvi kinetika və kataliz. Dərs vəsaiti. Bakı, 2005
19. R.Ə.Əliyeva, M.F.Çıraqov, Ə.Q.Babayev, X.C.Nağıyev. “Analitik kimya-1 vəsfi analiz və kimyəvi analiz metodları” dərslik Bakı-2017.248s.

20. Əliyeva R.Ə., Çıraqov F.M., Nağıyev X.C., Muğalova G.R. Elektrokimyəvi analiz metodları. Bakı Elm. 2013, 232 s.
21. Əliyeva R.Ə., Çıraqov F.M., Hüseynov F.E. Analitik kimyadan praktikum. Bakı. 2004. 525 s.
22. Əliyeva R.Ə., Qurbanov Ə.N. Analitik kimyadan vəsait, Bakı, 2002, 76 s.
23. Əliyeva R.Ə., Hüseynli A.Q. Optiki analiz metolarından praktikum. Bakı, 2001,110 s.
24. Əliyeva R.Ə., Qurbanov Ə.N. Fiziki-kimyəvi analiz metodlarının nəzəri əsasları. Bakı, 2001, 266 s.
25. M.R.Bayramov, M.M.Hacıyev, M.R.Mirzəyeva, İ.Q.Məmmədov. Neft kimyası və neft-kimyəvi sintezdən praktikum (dərs vəsaiti), Bakı Universiteti nəşriyyatı, 2018, 360 s.
26. A.M.Məhərrəmov, M.R.Bayramov. Neft kimyası və neft kimyəvi sintez (dərslik), Çaşıoğlu nəşriyyatı, 2012, 458 s.
27. A.M.Məhərrəmov, R.A. Əhmədova, N.F.Əhmədova. Химия нефти и нефте переработки (dərslik,/ Bakı Universiteti nəşriyyatı, 2010, 660 c.
28. A.M.Məhərrəmov. M.R.Bayramov, İ.Q.Məmmədov. Nüvə maqnit rezonansı spektroskopiyasında müasir metodlar (dərs vəsaiti), Bakı Universiteti nəşriyyatı, 2006, 140 s.
29. Гаджиев М.М., Байрамов М.Р. Технология органических веществ (Учебное пособие для ВУЗ-ов), Bakı Universiteti nəşriyyatı, 2006, 146 s. (2-ci nəşr)

30. O.H.Əkbərov, A.Ə.Əzizov, E.O.Əkbərov. Yüksəkmolekullu birləşmələr kimyası (dərslik), 2023, 391 s. (4-cü nəşr)
31. A.Ə. Əzizov, R.M. Alosmanov, O.H. Əkbərov. Polimer kompozisiya materialları (dərs vəsaiti), Bakı Universiteti nəşriyyatı, 2018, 245 s. (2-ci nəşr)
32. O.H. Əkbərov, Yüksəkmolekullu birləşmələr kimyası (dərs vəsaiti, rus dilində). Bakı Universiteti nəşriyyatı, 2017, 338 s.
33. E.O.Əkbərov. Polimerlərin sintezi (dərs vəsaiti), Bakı Universiteti nəşriyyatı, 2012, 180 s.
34. A.Ə. Əzizov, R.M. Alosmanov. Polimerlərin kimyəvi modifikasiyası (metodik vəsait), Bakı Universiteti nəşriyyatı, 2003. 96 s.

## BİOLOGİYA İXTİSASI ÜZRƏ:

1. А.К.Тимонин, В.Р.Филин. Систематика высших растений. М.: Издательский центр «Академия», 2009
2. Лотова Л.И. Ботаника. Морфология и анатомия высших растений. М., 2007.
3. Медведев С.С., Шарова В.И. Физиология растений. СПб.: Изд-во Санкт-Петербургского университета, 2011.
4. Белякова Г.А., Дьяков Ю.Т., Тарасов К.Л. Водоросли и грибы. М., Издательский центр «Академия». 2006.
5. Гурьева Н.А., Ворошилова Г.И. Эпидермальный анализ листьев хвойных деревьев. – М.: 1988.

6. E.M.Qurbanov, Z.C.Məmmədova Ali bitkilərin sistematikasından laboratoriya məşğələləri. Dərs vəsaiti. Bakı, «Bakı Universiteti» nəşriyyatı, 2010
7. Qədirov H.M., Quliyev V.Ş. Ali bitkilər sistematikası. Bakı, Maarif, 1986
8. Д.Д.Соколов, А.Б.Шипунов. Зоология беспозвоночных. М., Издательский центр «Академия», 2009
9. Левушкин С.И., Шилов И.А. Общая зоология. М., «Высшая школа», 1994.
10. Чернова О.Ф., Целикова Т.Н. Атлас волос млекопитающих. Тонкая структура остевых волос. М., 2004
11. İbrahimov A.Ş., Əliyev Ə.H., Bəşirov R.İ., Qarayeva A.Q. Botanika (dərslik), Sumqayıt, SDU-nun nəşri. 2004.
12. Mehdiyeva L.N. Yırtıcı göbələklər (dərs vəsaiti), Bakı, 2004.
13. M.Yusifov "Bitkiçilik". Bakı, 2011
14. Q.T.Mustafayev, N.A.Sadıqova. Ornitologiya. (dərs vəsaiti), Bakı, 2005.
15. Q.T.Mustafayev, R.Ə.Əliyeva, S.R.Hacıyeva. Ekologiyanın əsasları (dərslik), Bakı, 2006.
16. Əliyev Ə.H.,Əliyeva F.Ə., Mədətova V.M. İnsan və heyvan fiziologiyası (dərslik) Bakı, 2007.
17. Qəmbərov X. Q., Tağızadə Z.A., Abdullayeva N.A. Biotexnologiya (dərs vəsaiti). Bakı. 2005.
18. Qənbərov X.Q., Abuşov R.A., Süleymanova G.Ç., Həsənova S.A. Virusologiya. Bakı, 2013.
19. R.İ.Xəlilov və b. Tibbi və bioloji fizika (dərslik), Bakı, 2006.
20. Qənbərov X.Q., Abdullayeva N.A. Mikroorqanizmlərin biokimyası. Bakı, 2013.

*Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 29.09.2011-ci il tarixli 2-N nömrəli Qərarı ilə təsdiq edilmişdir*

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinə qulluğa qəbul olunmaq üçün namizədlərlə müsahibənin keçirilməsi**

# QAYDALARINDAN ÇIXARIŞ

## 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun 4.8-ci maddəsinin və Azərbaycan Respublikası Prezidentinin 13 dekabr 2007-ci il tarixli 673 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"nin 1.10-cu bəndinin tələblərinə uyğun hazırlanmışdır və Məhkəmə ekspertizası mərkəzində (bundan sonra – Mərkəz) qulluğa qəbul olunmaq üçün namizədlərlə (bundan sonra - namizədlər) müsahibənin keçirilməsinə dair məsələləri tənzimləyir.

1.2. Mərkəzin xüsusiyyətləri, həyata keçirdiyi özünəməxsus funksiyalar, o cümlədən elmin cürbəcür sahələri üzrə məhkəmə ekspertizalarının və tədqiqatların aparılması nəzərə alınaraq müxtəlif ixtisaslar üzrə ali təhsil tələb olunan vəzifələrə qulluğa qəbul olunmaq

arzusunda olan namizədlərin bilik səviyyəsinin, peşə hazırlığının, ümumi dünyagörüşünün, vəzifəyə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədi ilə onlarla aşkarlıq şəraitində şəffaf üsullarla müsahibə keçirilir.

1.3. Mərkəzdə müvafiq vakant ştat vahidləri olduqda, qulluğa qəbul ilə əlaqədar mediada, o cümlədən internet saytda elan verilir.

1.4. Mərkəzdə ali təhsil tələb olunmayan vəzifələr üzrə işə qəbul qaydaları digər müvafiq qanunvericilik aktları ilə tənzimlənir.

## 2. Müsabiqə Komissiyası

2.1. Müsahibənin keçirilməsi, namizədlərin təyinatına dair təkliflərin verilməsi üçün Mərkəzdə azı 5 nəfərdən ibarət Müsabiqə Komissiyası (bundan sonra - Komissiya) yaradılır. Komissiyanın tərkibi sədr, sədr müavini, məsul katib və digər üzvlərdən ibarət olmaqla Mərkəz rəisinin təqdimatı əsasında Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq edilir.

2.2. Komissiya üzvlərinin səlahiyyət müddəti 5 ildir. Səlahiyyət müddəti bitmiş üzvlər yenidən bu Komissiyanın tərkibinə daxil edilə bilər. İş yerini dəyişmiş üzvlərin səlahiyyətinə yenidən baxılır.

2.3. Komissiyanın işinə müvafiq sahələr üzrə alim və digər mütəxəssislər cəlb edilə bilərlər.

2.4. Komissiyanın iş qaydası, üzvlərinin hüquq və vəzifələri Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 12 avqust 2011-ci il tarixli Qərarı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi Qaydaları"na əsasən müəyyən edilir.

## 3. Sənədlərin qəbulu, müsahibənin keçirilməsi və yekunlaşdırılması

3.1. Mərkəzə qulluğa qəbul olunmaq arzusunda olan şəxslərin sənədlərinin qəbulu, onlarla müsahibənin keçirilməsi və yekunlaşdırılması, namizədlərin təyinatlarına dair təkliflərin verilməsi "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi Qaydaları"na uyğun olaraq həyata keçirilir.

3.2. Həmçinin ekspert vəzifələrinə namizədlərlə müsahibə zamanı onların elmi-məntiqi təhlil və analiz aparmaq, məsələləri ən səmərəli metodlar seçməklə həll etmək qabiliyyətinə, texniki avadanlıqlardan istifadə etmək, tədqiqatlar aparmaq bacarığı və digər peşə keyfiyyətlərinə xüsusi diqqət yetirilir.

3.3. Müsahibədən keçmiş namizədlərin peşə fəaliyyətinə buraxılmaları məqsədi ilə Ədliyyə Akademiyasında icbari təlimə cəlb edilməsi məsələsi Komissiya tərəfindən həll edilir.[4]

## 4. Yekun müddəalar

4.1. Peşə fəaliyyətinə buraxılması üçün icbari təlimi uğurla bitirmiş namizədlər altı aylıq stajorluq müddəti müəyyən edilməklə müvafiq vəzifələrə təyin edilirlər.

4.2. İlk dəfə Mərkəzdə ekspert vəzifələrinə qulluğa qəbul edilən şəxslərin xidməti vəzifələrini mənimsəməsi və hərtərəfli peşəkarlıq vərdişlərinə yiyələnməsini təmin etmək üçün stajorluq dövründə onlar məhkəmə eksperti şəhadətnaməsi almaq məqsədi ilə Azərbaycan

Respublikası Nazirlər Kabinetinin 25.05.2023-cü il tarixli 166 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məhkəmə eksperti şəhadətnaməsinin verilməsi Qaydası"na uyğun olaraq müvafiq təcrübəyə cəlb olunurlar.

İşçinin təcrübə müddətinin sonunda Mərkəzin Ekspert-İxtisas Komissiyası tərəfindən bilik səviyyəsi qiymətləndirilir.

4.3. Stajorluq müddətini müvəffəqiyyətlə bitirmiş işçiyə qulluğa yaralılığını, peşəkarlığını və təyin edildiyi vəzifəyə uyğunluğunu müəyyən etmək üçün üç aylıq sınaq müddəti təyin olunur.

Stajorluq, sınaq keçmə və şəxsin ədliyyə orqanlarına daimi qulluğa qəbulu ilə bağlı məsələlər Azərbaycan Respublikası Ədliyyə Nazirliyi üzrə 25 iyul 2007-ci il tarixli 31-T nömrəli əmrlə təsdiq edilmiş "İlk dəfə ədliyyə orqanlarına qulluğa qəbul edilən şəxslərin stajorluq və sınaq keçmə Qaydaları" ilə tənzimlənir.

4.4. Ədliyyə Nazirliyinin Müsabiqə Komissiyası tərəfindən keçirilən müsabiqə və müsahibələrdə uğur qazanaraq icbari təlimi müvəffəqiyyətlə bitirmiş namizədlər Mərkəzdə qulluğa müsahibə keçmədən qəbul olunurlar.

4.5. Müsahibənin nəticələrindən razı olmayan namizədlər tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada şikayət verilə bilər.

*Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Kollegiyasının 12.08.2011-ci il tarixli 1-N nömrəli Qərarı ilə təsdiq edilmişdir*

## Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi

# QAYDALARINDAN ÇIXARIŞ

### 1. Ümumi müddəalar

1.1. Bu Qaydalar "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa və Azərbaycan Respublikası Prezidentinin 13.12.2007-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə müsabiqənin və müsahibənin keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun hazırlanmışdır və ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün namizədlərlə (bundan sonra - namizədlər) müsabiqənin və müsahibənin təşkili məsələlərini tənzimləyir.

1.2. Hər bir namizədin bilik səviyyəsinin, peşə hazırlığının, ümumi dünyagörüşünün, ədliyyə orqanlarında vəzifələrə yararlı və layiqli olmasının müəyyən edilməsi məqsədi ilə aşkarlıq şəraitində şəffaf üsullarla müsabiqə və ya müsahibə keçirilir.

1.3. Ədliyyə orqanlarında müvafiq vakant ştat vahidləri olduqda, qulluğa qəbul ilə əlaqədar kütləvi informasiya vasitələrində və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin internet səhifəsində elan verilir.

1.4. Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq üçün müraciət etmiş şəxslərin sənədləri müəyyən edilmiş qaydada yoxlanılır.

1.8. Müsabiqədən keçmiş namizədlər, həmçinin, bir qayda olaraq, ədliyyə və digər dövlət orqanlarında inzibati vəzifə tutmaqla dövlət qulluğunun ixtisas dərəcəsinə malik olan işçilərin, habelə hüquq sahəsində elmi dərəcəsi olan, eləcə də Dövlət Proqramı çərçivəsində xaricdə təhsil almış şəxslərin xüsusi rütbələr nəzərdə tutulan vəzifələrə təyinat məsələsinə baxıldıqda peşə fəaliyyətinə buraxılmaları məqsədilə Ədliyyə Akademiyasında icbari təlimə cəlb edilirlər. Bu təlimi müvəffəqiyyətlə bitirmiş namizədlər ədliyyə orqanlarına qulluğa qəbul edilirlər.

1.9. Naxçıvan Muxtar Respublikası ərazisində ədliyyə orqanlarına müvafiq vəzifəyə qulluğa qəbul bu Qaydalara uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Ədliyyə Nazirliyi tərəfindən həyata keçirilir.

## 2. Müsabiqə Komissiyaları

2.1. Müsabiqə və müsahibənin keçirilməsi, namizədlərin təyinatına dair təkliflərin verilməsi üçün müvafiq olaraq Ədliyyə Nazirliyinin və Tibb baş idarəsinin aparatlarında, Penitensiar xidmətin baş idarəsində, bir qayda olaraq, 7 nəfərdən ibarət müsabiqə komissiyaları (bundan sonra - komissiya) yaradılır. Komissiyanın tərkibi sədr, sədr müavini, məsul katib və digər üzvlərdən ibarət olmaqla Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq edilir.

2.3. Komissiyanın işinə nüfuzlu hüquqşünaslar, alimlər və digər mütəxəssislər cəlb edilə bilərlər.

2.10. Komissiyanın iclasları üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. İclasların vaxtı, yeri və müzakirəyə çıxarılan məsələlər barədə komissiya üzvlərinə qabaqcadan məlumat verilir.

2.11. Sədr olmadıqda komissiyanın iclaslarına sədr müavini, o, olmadıqda isə komissiya üzvlərindən biri sədrlik edir.

2.12. Komissiyanın iclaslarında baxılan məsələlər üzrə qərarlar açıq səsvermə və səs çoxluğu ilə qəbul edilir. Sədr sonuncu səs verir və səslər bərabər olduqda, onun səsi həlledicidir. Qərarlar iclaslarda iştirak edən bütün komissiya üzvləri tərəfindən imzalanır. Komissiya üzvünün xüsusi rəyi olduqda, rəy qərara əlavə edilir.

2.13. Komissiyanın işinə qanunsuz müdaxilə yolverilməzdir.

## 3. Sənədlərin qəbulu

3.1. Ədliyyə orqanlarına qulluğa qəbul olunmaq arzusunda olan, "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun və dövlət qulluğu haqqında qanunvericiliyin tələblərinə cavab verən şəxslər tərəfindən müsabiqədə iştirak etmək üçün bu Qaydalarla müəyyən edilmiş formada (elektron və ya kağız daşıyıcılar vasitəsilə) müraciət oluna bilər (Əlavə №1). Müsabiqənin ixtisas imtahanından müvəffəqiyyətlə çıxanlar və müsahibədə iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim edirlər:

3.1.1. müsahibədə iştirak etmək üçün vahid forma üzrə ərizə (Əlavə №2);

3.1.2. kadrların uçotunun şəxsi vərəqəsi;

3.1.3. tərcümeyi-hal

3.1.4. ali təhsil haqqında sənədin (diplomun) notariat qaydasında təsdiq olunmuş surəti (xarici dövlətlərin ali təhsil sahəsində ixtisasları Azərbaycan Respublikasında tanınmaqla və ekvivalentliyi müəyyən edilməklə (nostrifikasiya olunmaqla);

3.1.5. şəxsiyyət vəsiqəsinin notariat qaydasında təsdiq olunmuş surəti;

3.1.6. əmək kitabçasının notariat qaydasında və ya kadrlar xidməti tərəfindən təsdiq olunmuş surəti (ilk dəfə əmək fəaliyyətinə başlayanlar istisna olmaqla);

3.1.7. sağlamlıq barədə Ədliyyə Nazirliyi tibb xidmətinin arayışı;

3.1.8. hərbi biletin notariat qaydasında təsdiq edilmiş surəti, ərazi üzrə Hərbi Komissarlıqdan həqiqi hərbi xidmət keçmə və qeydiyyat haqqında, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ vardırsa və ya azad edilmişdirsə müvafiq təsdiqedici sənəd;

3.1.9. ailə tərkibi haqqında arayış;

3.1.10. 4x6 sm ölçüdə 4 ədəd, 3x4 sm ölçüdə 2 ədəd rəngli fotoşəkil.

Müraciət edən şəxs özünü xarakterizə edən başqa sənədləri də təqdim edə bilər.

3.2. Ərizələrin qəbulu müvafiq kadrlar xidmətləri tərəfindən aparılır. Sənədlərin tamlığı, onların namizədin ərizəsində əks olunan məlumatlara uyğunluğu müəyyən edildikdən sonra ərizələrin qəbulu jurnalında qeydiyyata alınır.

3.3. Natamam və ya bu qaydalara uyğun olmayan sənədlər qəbul edilmir və ərizəçiyə aşkar olunmuş çatışmazlıqlar izah olunur. Çatışmazlıqlar aradan

qaldırıldıqdan sonra sənədlər ərizələrin qəbulu üçün müəyyən edilmiş müddət çərçivəsində yenidən təqdim oluna bilər.

3.4. Ərizələrin qəbulu müddəti başa çatdıqdan sonra təqdim olunan sənədlər (göstərilən müddət üçün poçtla göndərilən sənədlər istisna olmaqla) qəbul edilmir.

3.5. Namizədin ədliyyə orqanlarına qulluğa qəbul edilməsinin mümkün olub-olmaması qanunvericiliklə müəyyən edilmiş qaydada yoxlanılır və onun qulluğa qəbul edilməsinin mümkünlüyü barədə rəy hazırlanır. Namizədlər müsabiqənin söhbət mərhələsinə və ya müsahibəyə həmin rəy nəzərə alınmaqla buraxılırlar.

3.6. Ədliyyə orqanlarına qulluğa qəbul edilmək üçün qanunvericiliklə müəyyən edilmiş şərtlərə cavab verməyən, habelə bilərəkdən yanlış məlumatlar vermiş namizədlər müsabiqədən və müsahibədən kənarlaşdırılır.

3.7. Müraciət etmiş namizədlərin sənədləri ümumi siyahıya salınır və hər bir namizədə müsabiqə və onun keçirilməsi ilə bağlı zəruri məlumatları özündə əks etdirən "Yaddaş kitabçası" verilir.

3.8. Siyahıya salınmış hər bir namizədə eyniləşdirmə kodu verilir. Şəxsi eyniləşdirmə kodu rəqəmlə ifadə olunur və anonimliyin qorunmasına xidmət edir.

3.9. İmtahana 2 gün qalmış hər bir namizədə onun fotoşəkli olan "İmtahana buraxılış vərəqəsi" verilir. "İmtahana buraxılış vərəqəsi"ndə namizədin şəxsi eyniləşdirmə kodu, imtahan keçirilən ünvan, gün, saat, auditoriya, auditoriyada sıra və yer nömrəsi göstərilir.

İmtahanda yalnız şəxsi eyniləşdirmə kodundan istifadə olunur. «İmtahana buraxılış vərəqəsi"ndə namizədin adı və şəxsiyyətini müəyyən edən digər məlumatların yazılmasına yol verilmir. Bu qaydanı pozmuş namizəd müsabiqədən kənarlaşdırılır.

3.10. Namizədlər "İmtahana buraxılış vərəqəsi"ni və şəxsiyyət vəsiqəsini mütləq imtahana gətirməlidirlər. Göstərilən sənədlərin biri olmadıqda namizəd imtahana buraxılmır. "İmtahana buraxılış vərəqəsi"ni itirmiş və ya onda düzəliş etmiş şəxs imtahana buraxılmır və həmin şəxsə yeni "İmtahana buraxılış vərəqəsi" verilmir.

## 4. Müsabiqənin keçirilməsi

4.1. Müsabiqə ixtisas imtahanından və söhbətdən ibarətdir.

4.2. Müsabiqəyə "Ədliyyə orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə cavab verən ali hüquq təhsilli şəxslər buraxılırlar.

4.3. İxtisas imtahanı test üsulu ilə həyata keçirilir. İmtahanın müəyyən olunmuş qaydada keçirilməsini təmin etmək məqsədilə digər müvafiq dövlət qurumları cəlb oluna bilərlər.

4.4. İxtisas imtahanının keçirilməsi:

4.4.1. İmtahan 100 sualdan ibarətdir və 3 (üç) saat müddətində fasilə verilmədən keçirilir.

4.4.2. İmtahan suallarının hazırlanmasında istifadə edilmiş normativ hüquqi aktlara və sair sənədlərə dair

məlumat "Yaddaş kitabçası", internet və digər vasitələrlə namizədlərə çatdırılır.

4.4.3. Konfidensiallıq təmin edilməklə imtahan suallarını və onların cavablarını komissiya hazırlayır və bu işə mütəxəssislər cəlb edə bilər. Hazırlanmış suallar toplusunda sualların sayı imtahanda istifadə edilə biləcək sualların sayından ən azı beş dəfə çox olmalıdır.

4.4.4. Suallar imtahana ən azı 10 gün qalmış hazırlanır, komissiyanın qapalı iclasında baxılıb təsdiq edilir və zərfə qoyulub möhürlənməklə xüsusi yerdə saxlanılır.

Komissiya, həmçinin imtahan suallarına düzgün cavabların siyahısını hazırlayır və onun konfidensiallığını təmin edir.

4.4.5. İmtahana 2 gün qalmış konfidensiallıq təmin edilməklə və yaxud texniki imkanlar yol verdikdə vahid auditoriyada keçirilən imtahan zamanı namizədlərin iştirakı ilə həmin gün suallar toplusundan 80 imtahan sualı seçilir. Bu suallar hüququn müxtəlif sahələrinə və ədliyyə fəaliyyətinə dair qanunvericiliyi əhatə edir.

İxtisas imtahanına namizədin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini və dünyagörüşünü müəyyən etmək üçün mövcud suallar toplusundan əlavə 20 sual seçilir.

4.4.6. İmtahanda istifadə olunacaq suallar namizədlərin sayına görə sual kitabçası şəklində çoxaldılır, ayrıca zərflərə qoyulur və üzərində qeydlər edilir, möhürlənir və xüsusi yerdə saxlanılır.

4.4.7. İmtahanın müəyyən edilmiş qaydalarda keçirilməsini təmin etmək məqsədi ilə imtahan rəhbəri və nəzarətçiləri təyin olunurlar. İmtahan nəzarətçilərinin sayı

hər auditoriya üzrə iki nəfərdən az olmamalıdır. Eyni zamanda, beynəlxalq, hökümət və qeyri-hökümət təşkilatlarının, kütləvi informasiya vasitələrinin nümayəndələri imtahanı müşahidə etməyə dəvət edilə bilər.

4.4.8. İmtahana bir saat qalmış zərflər namizədlərə verilmək üçün imtahan rəhbərinə verilir.

4.4.9. Namizədlər imtahanın başlanmasına azı bir saat qalmış imtahan verəcəkləri binanın qarşısına gəlməlidirlər.

4.4.10. İmtahana gəlmiş namizəd binanın giriş hissəsində "İmtahana buraxılış vərəqəsi"ni və şəxsiyyət vəsiqəsini mühafizə işçisinə təqdim edib binaya daxil olmalı və "İmtahana buraxılış vərəqəsi"ndə göstərilən auditoriyada öz yerini tutmalıdır.

4.4.11. Hər bir masa arxasında bir namizəd əyləşir. Namizədlər auditoriyalarda öz yerlərini tutduqdan sonra imtahanın başlanmasına 15 dəqiqə qalmış imtahan rəhbəri, nəzarətçi və müşahidəçi ilə birlikdə cavab kartı zərfinin möhürünü açır, cavab kartını namizədlərə paylayır və onları doldurmaq qaydalarını izah edir. Sonra isə sual kitabçası paylanır. Sual kitabçasının bir neçə variantı olduqda kitabça namizədlərə növbəlilik qaydasında müxtəlif variantlarda paylanır.

Hər auditoriyada imtahanın başlanma vaxtı sual kitabçası paylanıb qurtardığı andan hesablanır.

4.4.12. Cavab kartında düzgün cavabın yerləşdiyi hərfli dairə qara və ya tünd göy rəngdə yazan diyircəkli qələmlə doldurulmalıdır. Korlanmış cavab kartı dəyişdirilmir. Bir suala aid olan bir neçə dairə qaralanarsa, həmin cavab etibarsız sayılır və ümumi nəticəyə

hesablanmır. Suallara verilən səhv cavabların düzgün cavablara mənfi təsiri yoxdur. Cavab kartı onu doldurmuş şəxs tərəfindən imzalanmalıdır.

4.4.13. İmtahan qurtardıqdan sonra namizəd cavab kartını imtahan nəzarətçilərinə təhvil verməli və auditoriyanı tərk etməlidir.

4.4.14. İmtahanın başa çatması barədə protokol tərtib edilir. Həmin protokol nəzarətçilər və iki nəfər namizəd tərəfindən imzalanır. Protokol və cavab kartları zərfə qoyulur, möhürlənir, imtahan rəhbərinə təqdim edilir və o, möhürlənmiş zərfi aidiyyəti üzrə verir.

4.4.15. Namizəd imtahanın keçirilmə qaydalarını pozduqda, o cümlədən saxta sənədlər təqdim etdikdə, köçürməyə yol verdikdə, imtahana rabitə vasitəsi gətirdikdə, imtahana öz yerinə başqasını göndərdikdə, yaxud imtahan qaydalarına zidd hərəkətlərə və digər saxtakarlıqlara yol verdikdə imtahanın rəhbəri və nəzarətçi bu barədə akt tərtib edir və namizəd imtahandan kənarlaşdırılır. Onun imtahan nəticələri komissiya tərəfindən ləğv edilir.

4.5. Cavab kartlarının yoxlanılması və balların hesablanması:

4.5.1. Komissiya tərəfindən cavab kartlarının yoxlanılması və balların hesablanması müvafiq mütəxəssislər cəlb edilməklə avtomatlaşdırılmış rejimdə elektron hesablayıcı maşınlar vasitəsilə həyata keçirilir. Möhürlənmiş cavab kartları ilə yanaşı, imtahan suallarına düzgün cavabların siyahısı cəlb edilmiş mütəxəssislərə təqdim edilir.

4.5.2. İmtahanda hüququn müxtəlif sahələrinə və ədliyyə fəaliyyətini əhatə edən qanunvericiliyə dair hər bir

sualın düzgün cavabı 1 balla qiymətləndirilir (cəmi 80 mümkün bal).

4.5.3. İmtahanda namizədin məntiqi nəticələr çıxarmaq qabiliyyətini, ümumi bilik səviyyəsini və dünyagörüşünü müəyyən edən 20 sualın hər birinin düzgün cavabı 0,5 balla qiymətləndirilir (cəmi 10 mümkün bal).

Suala düzgün olmayan cavab və ya sualın cavabsız saxlanması "0" bala bərabərdir.

4.5.4. Cavab kartlarının yoxlanılması qurtardıqdan sonra imtahanın nəticələri komissiyanın sədrinə təqdim edilir.

Nəticələr namizədlərə qısa müddətdə elan olunur. Hər namizədə onun xahişi ilə topladığı ballara dair arayış verilir.

4.5.5. İxtisas imtahanının yekununa görə 55 və daha artıq bal toplamış namizədlər söhbətə buraxılırlar.

4.5.6. İxtisas imtahanından müvəffəqiyyətlə çıxan namizədlər bu Qaydaların 3.1-ci bəndində nəzərdə tutulmuş sənədləri 15 iş günü ərzində təqdim etməlidir.

Bu yarımbəndin tələblərini üzrlü səbəb olmadan pozan namizədlər söhbət mərhələsinə buraxılmırlar.

4.5.7. İmtahanın nəticələrindən narazı qalan namizəd bu barədə nəticənin ona elan olunduğu vaxtdan 5 gün müddətində komissiyaya müraciət edə bilər. Komissiya aidiyyəti mütəxəssislərlə birlikdə şikayətçinin cavab kartını və arayışı ərizəçinin iştirakı ilə araşdırır və ona müvafiq izah verir.

4.5.8. Cavab kartının yoxlanılması düzgün həyata keçirilməmişdirsə, şikayətçiyə əsaslandırılmış məlumat verilir. Araşdırma nəticəsində namizədin keçid balı

topladığı müəyyən edilərsə, komissiya onun söhbətə buraxılması məsələsini həll edir.

4.5.9. Komissiya imtahanın keçirildiyi gündən iki il müddətində cavab kartlarının saxlanılmasını təmin edir.

4.6. Söhbətin keçirilməsi:

4.6.1. Namizədlərin ədliyyə orqanlarında qulluq keçmək üçün zəruri keyfiyyətlərə malik olmasını müəyyən etmək məqsədi ilə ixtisas imtahanından keçid balı toplamış şəxslərlə komissiya tərəfindən söhbət keçirilir.

İxtisas imtahanından keçid balı toplamış, lakin təhsilini davam etdirməsi və ya digər üzrlü səbəblərlə əlaqədar söhbətdə iştirak etməmiş şəxslərlə söhbət onlar təhsilini başa vurduqdan və ya digər hallar aradan qalxdıqdan sonra müraciətlərinə əsasən keçirilə bilər.

4.6.2. Söhbətin keçirildiyi yer və vaxt barədə namizədlərə komissiya tərəfindən əvvəlcədən məlumat verilir. Söhbətə gələnlər özləri ilə şəxsiyyət vəsiqəsini gətirməlidirlər.

4.6.3. Namizədlər söhbətdən əvvəl psixoloji testdən keçirilə bilərlər.

4.6.4. Söhbət zamanı namizədə onun Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını və digər normativ hüquqi aktlarını vəzifə borclarının icrası ilə əlaqədar tətbiq etmək sahəsində biliyinin və bacarığının müəyyən edilməsi, ümumi dünyagörüşünün, həmçinin, ədliyyə orqanları işçisinə zəruri olan xüsusiyyətlərin (o cümlədən özünü təqdimetmə, komanda tərkibində işləmək, problemi həlletmə, təşkilatçılıq və idarəetmə qabiliyyətinin, yaradıcılıq və təşəbbüskarlığının, analitik düşüncə tərzinin,

nailiyyətlərinin və sair) qiymətləndirilməsi üçün müvafiq suallar verilir.

4.6.5. Söhbət başlanarkən komissiyanın rəhbəri namizədlərin siyahısını elan edir və söhbət aparan şəxslərdən etirazları olub-olmamasını soruşur. Namizədlə yaxın qohumluq və ya şəxsi münasibətdə olan söhbət aparan şəxs həmin namizədlə söhbətdə iştirak etmir. Əsaslar olduqda namizəd söhbət başlanmazdan əvvəl söhbət aparanlardan hər hansı birinə etiraz edə bilər. Etirazın qəbul və ya rədd edilməsini komissiyanın sədri müəyyən edir.

4.6.6. Namizədlərlə söhbət fərdi qaydada və 30 dəqiqəyədək aparılır. Söhbət zamanı hər namizədə 5 sual verilir.

4.6.7. Söhbət zamanı namizədin verdiyi hər cavab komissiyanın hər bir üzvü tərəfindən 0, 1, 2, 3, 4 və 5 ballardan biri ilə qiymətləndirilir və sonra komissiya üzvlərinin verdiyi qiymətlər toplanaraq söhbətdə iştirak edən komissiya üzvlərinin sayına bölünür.

4.6.8. Söhbətin nəticəsi üzrə ən çox 25 bal toplamaq mümkündür.

4.6.9. Komissiya üzvləri arasında söhbətlə bağlı fikir mübadiləsi keçirilə bilər. Suallar və cavablar komissiyanın üzvləri tərəfindən bal cədvəlinə yazılır və qiymətləndirilərək komissiyanın sədrinə təqdim edilir.

4.6.10. Söhbətin nəticələri üzrə namizəd mümkün balın 60%-ni və daha çox bal topladıqda söhbətdən müvəffəqiyyətlə keçmiş hesab olunur.

## 6. Müsabiqənin və müsahibənin yekunlaşdırılması, namizədlərin təyinatına dair təkliflərin verilməsi

6.1. Müsabiqədə və müsahibədə iştirak edən namizədlər topladıqları ballara uyğun sıralanırlar.

6.2. Müsabiqədə və müsahibədə bərabər nəticələr əldə etmiş şəxslərdən elmi dərəcəsi olanlara, daha təcrübəlilərə, habelə xarici dilləri mükəmməl bilənlərə, kompüter biliklərinə malik olanlara və fikrini yazılı surətdə səlist ifadə etmək bacarığı nümayiş etdirənlərə üstünlük verilir.

6.3. Müsabiqənin və müsahibənin nəticələri üzrə namizədin, müvafiq olaraq, icbari təlimə cəlb edilməsi və ya cəlb edilməməsi, yaxud da ədliyyə orqanlarına qulluğa qəbul olunması və ya olunmamasının tövsiyə edilməsi barədə müvafiq iki qərardan biri qəbul edilir. Nəticələr, bir qayda olaraq, müsabiqə ümumilikdə başa çatdıqdan, müsahibə isə yekunlaşdıqdan sonra elan olunur və hər namizədə onun xahişi ilə topladığı ballara dair arayış verilir.

6.4. Peşə fəaliyyətinə buraxılış məqsədilə keçirilən icbari təlimin yekunları üzrə namizədlər üçün Ədliyyə Nazirliyi tərəfindən Ədliyyə Akademiyası ilə birlikdə imtahan keçirilir. Təlimi müvəffəqiyyətlə bitirmiş namizədlərə peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə verilir.

Ədliyyə Akademiyasında icbari təlimi müxtəlif səbəblərdən başa çatdırmamış namizədlərə müəyyən olunmuş nümunəyə uyğun arayış verilir və onlar ədliyyə orqanlarına qulluğa tövsiyə olunmurlar.

6.5. Komissiyanın qərarlarından və icbari təlimin

yekunları üzrə imtahanın nəticəsindən razı olmayan namizədlər Azərbaycan Respublikasının ədliyyə nazirinə şikayət edə bilərlər. Şikayətə baxılmasının nəticəsi barədə namizədə yazılı cavab verilir. Şikayətə baxılmanın nəticələrindən razı olmayan namizəd məhkəməyə müraciət edə bilər.

6.6. Ədliyyə orqanlarına qulluğa qəbul olunmağa tövsiyə edilmiş namizədlərin təyinatına dair aidiyyəti rəhbərə müvafiq qaydada təkliflər təqdim olunur. Təqdim olunmuş namizədlər sırasından müvafiq vakant vəzifələrə müəyyən olunmuş qaydada təyinat aparılır.

6.7. Peşə fəaliyyətinə buraxılış şəhadətnaməsi almış və ya müsahibədən müvəffəqiyyətlə keçən namizədlərin sayı ədliyyə orqanlarında boş olan ştat vahidlərinin sayından artıq olarsa qulluğa qəbul edilməsi barədə əmr verilməyən namizədlər, müvafiq olaraq, növbəti icbari təlimin və ya müsahibənin yekunları üzrə qulluğa qəbulla bağlı tövsiyələr təqdim edilənədək ehtiyat kadr siyahısında olmaqla, aidiyyəti vakant ştat vahidi yarandıqda (bu Qaydaların 3.1-ci bəndinin tələbləri nəzərə alınmaqla) istifadə oluna bilərlər.

6.8. Müəyyən olunmuş müddət bitdikdən sonra və ya təklif edilən iki münasib işdən imtina edənlər (eyni iş təkrarən təklif oluna bilməz) ehtiyat kadr siyahısından çıxarılırlar. Namizəd ehtiyat kadr siyahısından çıxarıldıqda peşə fəaliyyətinə buraxılma haqqında şəhadətnamə qüvvəsini itirir.

Həcmi: 2 ş.ç.v. Formatı: A5. Tiraj: 70 ədəd. Sifariş 014.